# Bakını hindlilər də çox sevir...

*Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Bu artım onların təmsil etdikləri ölkələrin sayında da müşahidə olunur. İndi ölkəmizə dünyanın ən müxtəlif yerlərindən qonaqlar üz tutur. O cümlədən, uzaq Hindistandan...*

*Hindlilər Bakını, xüsusilə İçərişəhəri çox xoşlayıblar. Əsrlərin yadigarı olan tikililərə, abidələrə heyranlıqla tamaşa edir, tariximizlə maraqlanır, bələdçilərə, tərcüməçilərə suallar verirlər.*

*Azərbaycana gələn turistlərin hamısını, eləcə də hindistanlıları valeh edən təkcə yurdumuzun gözəllikləri və xalqımızın qurub-yaratdıqları deyil. Buradakı xoş ab-havadan da məmnun qalırlar. Hər addımbaşı mehriban insanlarla üzə-üzə gəldiklərindən özlərini az qala evlərindəki kimi hiss edirlər...*

***"Azərbaycan"***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***



Azərbaycan.- 2019.- 17 mart.- S.12.